**Respublika**. - 2024.- 10 oktyabr. - № 222. - S. 6.

# İqlim dəyişmələri ilə mübarizədə “yaşıl bankçılığ”ın rolu artır

**Ətraf mühitin çirklənməsi və qlobal iqlim dəyişmələri problemləri müxtəlif səviyyələrdə ekoloji sabitliyin artırılması vasitələrinin dərindən öyrənilməsinə, o cümlədən məqsədli layihələrin maliyyələşdirilməsinin yeni mənbələrinin aşkarlanmasına təkan verir. İnkişaf etməkdə olan ölkələrdə bu proseslərdə beynəlxalq banklar əsas rol oynayır. Son illərdə "yaşıl bankçılıq" konsepsiyası ekoloji problemlərin aradan qaldırılmasında beynəlxalq maliyyə institutlarının fəal iştirakından irəli gələn təbiəti mühafizə siyasətinin ən innovativ vasitəsi kimi tanınır.**

Bakıda ilk dəfə təşkil olunan Azərbaycan Halal Biznes Forumu çərçivəsində ölkəmizdə "yaşıl bankçılığ"ın tətbiqi məsələləri müzakirə olunub. Bununla əlaqədar tədbirdə spiker qismində çıxış edən Türkiyə Katılım Banklararası Birliyinin baş katibinin köməkçisi Fatma Çnarın münasibətini öyrəndik.

***–Fatma xanım, Türkiyə banklarını birləşdirən qurumun təmsilçisi olaraq buradasınız. Halal Biznes Forumunda hansı mövzular ətrafında debatlar aparılacaq?***

–Azərbaycanda keçirilən bu tədbirdə iştirakdan məmnunuq. Azərbaycanın qədim tarixini nəzərə alaraq, inkişaf edən iqtisadiyyatına halal sisteminin daxil olması bizi çox sevindirir. Halal sistemi geniş bir perspektivə malikdir, bura qida, tekstil, sənaye, maliyyə sektorları daxildir. Mən bank sistemini təmsil edirəm. Keçirilən tədbirdə Türkiyənin 40 illik islam bankçılığı təcrübəsini buradakı iştirakçılarla bölüşəcəm. Azərbaycanda islam bankçılığı, yəni "yaşıl bankçılıq" barədə daha çox məlumat toplamaqda maraqlı dairələr var, biz də bütün səylərimizi burada sənayenin inkişafına yönəltməyə çalışırıq. Azərbaycanda KOBİA, Azərbaycan Banklar Assosiasiyası, burada fəaliyyət göstərən digər bankların nümayəndə heyətləri ilə qarşılıqlı görüşlər keçiririk. Bu əməkdaşlığın uğurlu nəticələrə gətirəcəyinə ümidvarıq. Azərbaycan bizim qardaş ölkəmizdir, biz həm məlumat mübadiləsi, həm digər təmaslarda bərabər olmaqdan çox şadıq.

***–Təmsil etdiyiniz qurumun Azərbaycanla bağlı hansı layihələri var?***

–Banklar Birliyi ilə Azərbaycanda KOBİA ilə KOS-ların (kiçik və orta sahibkarlar) inkişafına dair Anlaşma Memorandumu imzalanıb. Həmçinin Azərbaycan Banklar Assosiasiyası ilə Anlaşma Memorandumu var. Həmin memorandum çərçivəsində iki ölkə arasında banklar arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün birgə fəaliyyət, iclaslar, təqdimatlar həyata keçirəcək, təcrübələrimizi bölüşəcəyik. Burada özəl sektorun bir çox nümayəndələri ilə sıx təmasdayıq, təlim və sertifikasiya proqramlarımız var. Bu mənada hüquqi bazanın təkmilləşdirilməsi, KOS-lara necə kömək edə bilərik, bu məsələləri müzakirə etmək üçün Azərbaycandayıq. Ümid edirik ki, ilk dəfə burada keçirilən Halal Biznes Forumunun yekununda yeni layihələrin təməli qoyulacaq və gözəl nəticələr əldə olunacaq.

***–Gələn ay ev sahibliyi edəcəyimiz COP29 konfransı ilə bağlı bütün dünyanın diqqətinin məhz Azərbaycana yönəldiyini qeyd etsək, yanılmarıq. İslam bankçılığının bu tədbirdə mövqeyi necə olacaq?***

–Qeyd edim ki, COP proqramının fəal iştirakçısıyam. İqlim konfransının keçiriləcəyi Olimpiya stadionunda olmuşam, hazırda orada həyata keçirilən işlərlə tanışam, şəhərin gündən-günə dəyişdiyini diqqətlə izləyirəm. Müşahidələrimə əsasən sizdə hər kəs COP tədbirinə artıq hazırdır. Dünən beynəlxalq qurumlara e-mail ünvanlayaraq, Azərbaycanın COP29-a hazır olduğunu bəyan etdim. Bu tədbirdə bütün dünya ölkələri ortaq mövzu ətrafında fikir mübadiləsi həyata keçirəcək. Yəni iqlim dəyişmələrinə uyğunlaşmaq məsələsində ölkələr hansı siyasətlər həyata keçirirlər, nə kimi tədbirlər görürlər və dünyanı təmiz saxlamaq üçün daha nələr etməliyik. İqlim dəyişmələri nöqteyi-nəzərindən enerji, maliyyə, qida, emal, sənaye, təhsil sektorlarının inkişafı müzakirə mövzuları olacaq.

Azərbaycan üçün COP tədbirinin önəmi bundan ibarətdir və bunun sayəsində ölkəniz dünya dövlətlərinin bu prosesə necə reaksiya verdiyini nümayiş etdirən əsas məkana çevriləcək. Bununla bağlı bütün səviyyələrdə, həmçinin islam bankçılığı tərəfindən müəyyən işlər görülür. Əminəm ki, Azərbaycanın aidiyyəti nazirlikləri ilə bütün maraqlı tərəflər arasında müvafiq sazişlər imzalanacaq.

Ötən il keçirilən COP tədbirində gördük ki, həm hökumət, həm banklar səviyyələrində bəzi vədlər verildi, qərarlar qəbul olundu, öhdəliklərin həyata keçirilməsi məqsədilə bir neçə qruplar formalaşdırıldı. Mən həyəcanla Azərbaycanda keçiriləcək bu konfransda dünyamızın, cəmiyyətin gündəmi üçün faydalı istehlaka dəstək olacaq, bizləri daha çox təkmilləşdirəcək məsələlərin müzakirəsini gözləyirəm. Bundan sonra edə biləcəklərimiz barədə fikir mübadiləsi aparacağıq, işçi qrupları təşkil edəcəyik. Həm də Türkiyə Katılım Banklararası Birliyi olaraq bu tədbirin keçirilməsini dəstəkləyirik və fəal töhfə verməyə hazırıq.

***–İslam bankçılığının COP-a töhfəsi nə ola bilər?***

–İslam maliyyə sənayesi ümumilikdə 3,5 trilyon dollara bərabər iqtisadiyyatdır. Bu vəsaitin bir hissəsini bu cür sosialyönümlü tədbirlərin həyata keçirilməsinə yönəltməyimiz şərtdir. Dünyadakı islam maliyyə qurumları, İslam İnkişaf Bankı və tabeliyindəki təsisatlar kredit portfellərində bu istiqamətdə müxtəlif layihələr həyata keçirən təşkilatlara özəl paketlər ayırmalıdır. Bu məsələləri bir daha gündəmə gətirəcəyik. Yəni hər kəs bu vəsaiti ayırmaq üçün nə lazımdırsa, ölkə olaraq hansı töhfəni verməyə hazır olduğunu tədbirdə bəyan edəcək. Azərbaycan burada iki rol oynayacaq - həm bu maliyyədən öz ölkəsi üçün pay almağa çalışacaq ki, tam haqqlıdır və vacib məsələdir, ikincisi, bütün ölkələrin səslərinin eşidilməsi üçün bir platforma olacaq. Keçirilən görüşlərin və iclasların bu nöqteyi-nəzərdən zəruriliyi gündən-günə artır.

*Müsahibəni apardı:*
*Aygün İbrahimova,*